

# “Böyük Qayıdış” mədəni reinkarnasiyadır

**Müharibə təkcə səngərlərdə başlamır və bitmir. Müasir dövrdə silahların səsi qədər təhlükəli və dağıdıcı olan başqa bir müharibə forması da var. Bu, daha səssiz, amma bir o qədər də geridönülməz nəticələrlə yadda qalan mədəniyyətə qarşı müharibədir.**

Azərbaycan xalqı bu müharibənin şahidi deyil, birbaşa hədəfi olub. Tarix yalnız zaman axarının deyil, həm də yaddaşın təcəssümüdür. Bu yaddaş bir xalqın mədəniyyətində, dini ibadət yerlərində, qəbiristanlıqlarında, muzeylərində yaşayır. Qarabağ münaqişəsinin 30 ildən artıq davam edən işğal dövründə isə Ermənistan tərəfindən Azərbaycan torpaqlarında həyata keçirilən dağıntılar təkcə ərazi işğalı deyil, həm də tarixin, mədəniyyətin, mənəvi yaddaşın məhv edilməsi siyasəti idi.

**(davamı 8-ci səhifədə)**

# "Böyük Qayıdış" mədəni reinkarnasiyadır

(əvvəli 1-ci səhifədə)

Bu siyasət başqa bir xalqın irsinə qarşı sistemli və məqsədli şəkildə aparılan vandalizm, yəni bəşəriyyətin ortaq dəyərlərinə təcavüz aktıdır. Ermənilərin Azərbaycan torpaqlarında törətdikləri mədəni soyqırımı müasir dövrün ən ağır humanitar cinayətlərindən biri kimi qiymətləndirilməlidir. Çünki dağıdılan təkcə binalar, məscidlər, qalalar, kitabxanalar deyildi, bir xalqın kimliyi, yaddaşı və gələcək nəsillərə ötürülməli olan mənəvi dəyərləri hədəfə alınmışdı. Bu gün azad olunmuş ərazilərdəki fotoları, videoreportajları izləyərkən yalnız xarabalıqları deyil, həm də həmin daşların altında basdırılmış tariximizi, oradan silmək istədikləri mədəniyyətimizi görürük. Elə bu səbəbdən mədəniyyətə qarşı törədilən cinayətlərə susmaq, onları görməzdən gəlmək və ya sadəcə "müharibənin nəticəsi" kimi təqdim etmək həm əxlaqi, həm hüquqi baxımdan qəbuledilməzdir.

1990-cı illərin əvvəllərində Ermənistanın Azərbaycan torpaqlarını işğal etməsi ilə paralel şəkildə həmin ərazilərdə mədəni irsə qarşı aparılan vandalizm özünün genişmiqyaslı təzahürlərini göstərdi. Ermənilərin əsas hədəfi yalnız torpaq zəbt etmək deyildi. Onların əsl niyyəti həmin ərazilərdə tarixən mövcud olmuş türk-müsəlman izlərini tamamilə silmək, əvəzində saxta erməni izləri qoymaq, bir sözlə tarixi dəyişmək idi. Tarixin saxtalaşdırılması cəhdi isə heç bir şəkildə mədəniyyətə hörmətlə uzlaşmır. Mədəniyyət bir millətin ruhudur. Qala divarları, məscid minarələri, kitabxana rəfləri və muzey vitrinləri sadəcə daş və taxtalardan ibarət deyil. Onlar zamanla yoğrulmuş, keçmişdən gələcəyə uzanan mənəvi körpüdür. Bu körpünün qırılması isə təkcə bir məkanın deyil, həm də bir xalqın tarixi yaddaşının və özünüdərkin parçalanması deməkdir. Azərbaycanın rəsmi mənbələrinin, xüsusən də Mədəniyyət Nazirliyi və Dövlət Turizm Agentliyinin təqdim etdiyi hesabatlara əsasən, Ermənistanın işğalı dövründə 700-dən çox tarixi abidə tamamilə yer üzündən silinib. 22 muzey və oradakı minlərlə eksponat ya oğurlanıb, ya məhv edilib, ya da qeyri-qanuni yollarla Ermənistana daşınıb. 927 kitabxanada saxlanılan millilik və tarixilik baxımından nadir nəşrlər itirilib. 58 arxeoloji abidə dağıdılıb. 26 qala və qala divarı bərpa edilməz hala salınıb. Kəlbəcər rayonunda yerləşən, orta əsrlərə aid nadir memarlıq abidələrindən biri olan Xudavəng monastır kompleksi təkcə xristian irsinin deyil, həm də Qafqaz Albaniyasının mədəni və dini tarixinin daşıyıcısıdır. Bu monastır uzun illər alban apostol xristianlarına mənsub ibadətgah kimi tanınıb. Lakin işğal dövründə Ermənistan bu abidəni "qədim erməni kilsəsi" kimi təqdim edib. Ermənilər Xudavəngdə memarlıq üslubuna müdaxilə edərək, daş yazıları dəyişdirib orijinal alban xaçlarını və simvollarını silib onların yerinə erməni xaçları həkk edib. Monastırın qədim əlyazmaları, ikonaları, dini rəsmləri və əşyaları isə Ermənistana daşınaraq "erməni irsi" adı altında arxivləşdirilib.







Ağdam rayonunda yerləşən Şahbulaq qalası XVIII əsr Qarabağ xanlığının hərbi memarlıq nümunəsidir. Qalanın yaxınlığında aparılan qazıntılar zamanı qədim dövrlərə aid çoxsaylı yəni saxsı qablar, dəmir və mis əşyalar, insan skeletləri və yaşayış izləri aşkarlanıb. Bu ərazilər Azərbaycanın ilkin sivilizasiyalarına dair ciddi elmi dəyərə malik məlumatlar təqdim edirdi. Bu əhəmiyyətli bölgə də erməni vandalizmindən sığortalanmayıb. İşğal dövründə Şahbulaq qalasının ətrafında qeyri-qanuni arxeoloji qazıntılar aparılıb və tapılmış eksponatlar Ermənistana daşınıb. Bu eksponatlar ya tamamilə yoxa çıxıb, ya da saxta "erməni mədəniyyəti" kontekstində təqdim olunub.

Şuşa şəhərində yerləşən Gövhərağa məscidi Qarabağ memarlığının ən nadir incilərindən biridir. XVIII əsrdə inşa olunmuş bu ibadətgah təkcə dini yox, həm də mədəni simvoldur. İşğal zamanı bu tarixi məkan mal-qara saxlanılan tövləyə çevrilib, onun divarlarına təhqiramiz yazılar yazılıb, interyer bəzəkləri sökülüb, minarələri zədələnib. Bu hərəkət dini ayrı-seçkilikdən daha çox etnik və mədəni nifrətin ifadəsidir. Məscidlərin bu cür təhqir olunması islamofobiyanın bir parçasıdır. Eyni zamanda, bu, mədəniyyətə qarşı yönəlmiş simvolik zorakılıqdır. Məscid artıq bərpa olunub, lakin onun üzərindəki təhqir izləri Ermənistanın apardığı mədəni soyqırımın şahididir. Ermənistanın vandalizmi yalnız islam mədəniyyətinə qarşı yönəlməyib. Qarabağda yerləşən xristian abidələri də eyni aqibəti yaşayıb. Xocavənd rayonunda yerləşən iki alban xristian məbədi Ermənistan silahlı qüvvələri tərəfindən döyüş mövqeləri kimi istifadə olunub. Abidələrin divarlarına yazılar yazılıb, içəridə tonqallar qalanıb, dini əşyalar dağıdılıb. Bu fakt sübut edir ki, ermənilər hətta xristian irsinə də hörmət etməyiblər, çünki məqsəd yalnız dini yox, etnik və milli mədəniyyətləri silmək olub. Halbuki bu kilsələr Qafqaz Albaniyasına aid xristian abidələri idi və Azərbaycan xalqının dini-mədəni müxtəlifliyini əks etdirirdi. İşğaldan azad olunmuş ərazilərdə minlərlə qəbiristanlıqda vandalizm izləri aşkarlanıb. Qəbir daşları sındırılıb, məzarlar qazılıb, bəzi hallarda isə ərazilər minalanaraq insanlar üçün təhlükəli hala salınıb. Bu cür davranışlar mədəniyyətə deyil, həm də insaniyyətə qarşı törədilmiş cinayət kimi qiymətləndirilməlidir.

Mədəni irsin dağıdılması, mənimsənilməsi və saxtalaşdırılması kimi hallar müasir dövrün beynəlxalq hüquq sistemində cinayət kimi tanınır. Məsələn beynəlxalq humanitar hüquqa görə, münaqişə dövründə dini obyektlər toxunulmaz sayılır. 1954-cü il Haaqa Konvensiyasına əsasən, müharibə şəraitində belə məscidlər, kilsələr, sinaqoqlar və digər ibadət məkanları qorunmalıdır. Ermənistan bu normalara açıq-aşkar etinasız yanaşmaqla, mədəni cinayətə əlavə olaraq dini cinayət də törədib. 1970-ci il UNESCO Konvensiyası isə "Mədəni sərvətlərin qanunsuz gətirilməsinin, ixracı və mülkiyyətinin ötürülməsinin qadağan olunması və qarşısının alınması haqqında" sənəd adı altında xüsusilə Şahbulaq, Xudavəng və digər mədəniyyət obyektlərindən tapıntıların Ermənistana daşınması fonunda aktuallıq kəsb edir. Ermənistan isə bu cinayəti tək-tək fərdi vandalizm aktları ilə deyil, sistemli şəkildə dövlət səviyyəsində həyata keçirib. Bu baxımdan, mədəniyyətə qarşı aparılan bu genişmiqyaslı müharibə miqyasına, metodlarına və nəticələrinə görə yalnız Azərbaycanı deyil, bütün bəşəriyyəti narahat etməlidir. Çünki məhv edilən abidələr təkcə bir millətin deyil, bütövlükdə insanlığın ortaq irsidir. Əgər dünya ictimaiyyəti bu cinayətə laqeyd qalırsa, bu, digər xalqlar üçün də eyni təhlükənin mümkünlüyünə göz yummaq deməkdir. Amma qəribədir ki, bu qədər irimiqyaslı mədəni soyqırıma baxmayaraq, beynəlxalq media bu məsələni kifayət qədər işıqlandırmayıb. Halbuki Avropanın istənilən bir ölkəsində bir kilsənin qapısı rənglə boyanılsa, dünya KİV-ləri bunu manşetə çıxarır. Bəs Qarabağda yüzlərlə abidə yerlə bir edildikdə, qədim əlyazmalar oğurlandıqda, məscidlər tövləyə çevrildikdə bu susqunluq nə ilə izah olunmalıdır? Bununla belə, təqdirəlayiq haldır ki, "The Gulf Observer" kimi nadir beynəlxalq media orqanları bu məsələyə diqqət yetirib, ermənilərin törətdikləri mədəniyyət cinayətlərini faktlarla qeyd edib. Nəşr yazıb ki, ermənilərin Azərbaycanın maddi-mədəni irsini məhv etməsi təkcə Azərbaycana deyil, həm də ümumbəşəri dəyərlərə qarşı vandalizm aktıdır.

Azərbaycan dini müxtəlifliyə və mədəni tolerantlığa əsaslanan siyasəti ilə seçilir. Ölkədə müsəlman, xristian və yəhudi dini icmaları sərbəst fəaliyyət göstərir, dini abidələr dövlət tərəfindən bərpa olunur və qorunur. Şəki, Qəbələ, Quba və Bakıdakı kilsələr, sinaqoqlar bunun canlı nümunələridir. Qarabağın azad olunmasından sonra Azərbaycan dövləti oradakı bütün dini abidələrin, o cümlədən xristian məbədlərinin də bərpasına başlayıb. Xudavəng monastır kompleksi, Qazançı kilsəsi və digər abidələr dövlətin nəzarəti altındadır. Bu, Azərbaycanın sülh və bərabərlik prinsiplərinə sadiqliyini, həmçinin mədəni irsi dinindən və mənsubiyyətindən asılı olmayaraq qorumağa hazır olduğunu sübut edir. Ermənistandan fərqli olaraq ölkəmiz dini abidələrdən siyasi manipulyasiya üçün istifadə etmir. Bu gün Azərbaycan dövlətinin "Böyük Qayıdış" proqramı çərçivəsində azad edilmiş ərazilərdə apardığı bərpa işləri də sadəcə tikinti yox, mədəniyyətin dirçəlişidir. "The Gulf Observer" də öz məqaləsində vurğulayıb ki, uzunmüddətli işğala baxmayaraq, bu gün Azərbaycan öz vəsaiti hesabına Qarabağ və Şərqi Zəngəzurun bərpası üzrə genişmiqyaslı işlər aparır. "Böyük Qayıdış" proqramı çərçivəsində minlərlə insan artıq doğma yurdlarına qayıdır - proqramın birinci mərhələsi 2026-cı ildə başa çatacaq, bu zaman təxminən 140 min insan öz doğma evlərinə qayıtmış olacaq.

Qarabağ və Şərqi Zəngəzurun yenidən qurulması, mədəniyyət obyektlərinin restavrasiyası, məscid və muzeylərin bərpası, yol və enerji infrastrukturunun yaradılması mədəni və mənəvi həyatın da bərpası deməkdir. Azad edilmiş ərazilərdəki muzeylər, xüsusilə Şuşa Tarix Muzeyi, Ağdam Tarix-Diyarşünaslıq Muzeyi, Cəbrayıl Xalq Yaradıcılığı Muzeyi və digərləri ya tamamilə bərpa olunur, ya da müasir tələblərə uyğun şəkildə yenidən qurulur. Bu muzeylər Qarabağın tarixi, incəsənəti, etnoqrafiyası və xalq yaddaşı haqqında məlumatların yayılması baxımından mühüm rol oynayacaq. Həm yerli əhali, həm də xarici turistlər üçün bu obyektlər kulturoloji maarifləndirmə mərkəzlərinə çevriləcək. Muzeylərdə interaktiv texnologiyalar, arxiv materialları, multimedial təqdimatlar istifadəyə veriləcək. Azərbaycan dövləti bu prosesi siyasi və hüquqi aspektdən düzgün şəkildə yönləndirir. Qarabağda aparılan bərpa prosesi yalnız daxili məsələ kimi yox, həm də beynəlxalq mədəni diplomatiya layihəsi kimi təqdim edilir. Şuşada keçirilən "Xarıbülbül" festivalı, Vaqif Poeziya Günləri, beynəlxalq humanitar forumlar bu siyasətin mərkəzində dayanır. Azərbaycan dünya ictimaiyyətinə göstərir ki, vandalizmə qarşı ən güclü silah quruculuqdur. Bütün bunlar belə deməyə əsas verir: "Böyük Qayıdış" mənəvi və mədəni reinkarnasiyadır, xalqın öz kökünə, yaddaşına və ruhuna qayıdışıdır.

**Jalə QASIMZADƏ,**
**"Respublika".**